## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

**1494** - Füzuli - Məhəmməd ibn Süleyman və ya Molla Məhəmməd Bağdadi Bağdadın yaxınlığında yerləşən Kərbəla şəhərində anadan olmuşdur.

**1514** - Bağdadın Səfəvi valisi İbrahim xan Mosullunun himayəsində olmuşdur.

**1524** - Azərbaycan dilində "Bəngü Badə" allegorik və satirik əsərini yazmışdır.

**1527** - Mosullu öldürüldükdən sonra Füzuli Hillə və ya Nəcəfə köçmüşdür.

**1537** - "Leyli və Məcnun" liro-epik poemasını yazmışdır.

**1543** - Oğlu Fəzli anadan olmuşdur.

**1556** - Bağdadda yayılmış taun epidemiyası nəticəsində vəfat etmişdir.

**1569-1572** - Səidi təxəllüsü ilə məşhur olan Mahmud ibn Davud Ulanyavi tərəfindən Füzulinin türkcə (azərbaycanca) "Divan"ının üzü köçürülmüşdür.

**1589-1590** - Füzuli əlyazmalarının ən qədimi sayılan Füzuli külliyyatı yazılmışdır və Sankt-Peterburq Şərqşünaslıq İnstitutunda saxlanılır.

**1828** - Füzulinin "Divan"ı Təbrizdə daşbasma üsulu ilə çap olunmuşdur.

**1907** - Bəstəkar Üzeyir Hacıbəyov Füzulinin Leyli və Məcnun əsəri əsasında eyniadlı opera yazmışdır.

**1914** - Xalq rəssamı Əzim Əzimzadə Füzulinin portretini yaratmışdır.

**1924** - "Müsəhhəhi-külliyyati-divani-Füzuli" M.F. Köprülüzadənin müqəddiməsi ilə çap olunmuşdur.

**1936** - "Söhbətül-əsmar" əsəri türkoloq Qunnar Carrinq tərəfindən "Meyvələrin yarışı" ("The Contest of the Fruits") adı ilə tərcümə edilmişdir.

**1944** - Füzulinin türkcə "Divan"ının ilk elmi-tənqidi mətni akademik Həmid Araslı tərəfindən nəşr olunmuşdur.

**1948** - Ədəbiyyatşünas, tərcüməçi Əbdülbaqi Gölpınarlı Füzulinin türkcə "Divan"ının elmi-tənqidi mətnini hazırlamışdır.

**1950** - Ədəbiyyatşünas Əli Nihad Tərlan Füzulinin türkcə "Divan"ının elmi-tənqidi mətnini hazırlamışdır.

**1958** - "Füzuli. Türkcə divan" kitabı Ankarada çap edilmişdir.

- Rəssam Sadıq Şərifzadə Məhəmməd Füzulinin portretini işləmişdir və bu tabloya görə rəssam respublikanın II dərəcəli mükafatına layiq görülmüşdür.

- Füzulinin 400 illik yubileyi münasibətilə xalçaçı rəssam Kamil Əliyevin eskizi əsasında Füzulinin portret-xalçası toxunmuşdur.

- Akademik Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli" kitabı çap olunmuşdur.

**1958-1963** - Heykəltaraşlar Tokay Məmmədov, Ömər Eldarov və memar Hacı Muxtarov Füzulinin heykəlini hazırlamışlar.

**1959** - Füzulinin anadan olmasının 400 illiyi münasibətilə Azərbaycan rayonlarından birinə (keçmiş Karyagin) Füzulinin adı verilmişdir.

- Füzulinin qəzəlləri əsasında Azərbaycan bəstəkarı Cahangir Cahangirov "Füzuli kantatası" əsərini bəstələmişdir.

- Akademik Məmməd Cəfər "Füzuli düşünür" monoqrafiyasını yazmışdır.

- Professor Hüseyn Əli Məhfuzun (İraq) "Füzuli əl-Bağdadi" adlı kitabı çap edilmişdir.

- Xalq şairi Bəxtiyar Vahabzadənin Məhəmməd Füzuliyə həsr olunmuş Şəbi-hicran poeması nəşr edilmişdir.

- Bəstəkar Arif Məlikov "Füzuli" simfonik poemasını yazmışdır.

- Füzulinin anadan olmasının 400 illik yubileyi münasibətilə UNESCO tərəfindən Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması ingilis dilində nəşr edilmişdir.

**1960-1970** - Xalq rəssamı Səttar Bəhlulzadə "Füzuli" adlı qrafika əsərləri yaratmışdır.

**1961** - Məhəmməd Füzulinin eyniadlı əsərinin motivləri əsasında "Leyli və Məcnun" filmi çəkilmişdir.

**1963** - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının önündə qranit postament üzərində ucaldılan Məhəmməd Füzuli abidəsinin açılışı olmuşdur.

**1965** - Heykəltaraş Elcan Şamilov Füzulinin portret heykəlini hazırlamışdır.

**1970** - "Leyli və Məcnun" əsəri Londonda "Leyla and Mejnun" adı ilə yazıçı-tərcüməçi Sufi Huri tərəfindən tərcümə edilmişdir.

**1972** - Xalçaçı rəssam Lətif Kərimovun eskizi əsasında Füzulinin portret-xalçası toxunmuşdur.

**1993** - Bəstəkar Ramiz Mustafayev "Füzuli" vokal-simfonik poemasını bəstələmişdir.

**1994** - Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fərman imzalamışdır.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət komissiyasının iclasında çıxış etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Türkiyədə səfərdə olmuşdur və Bilkent Universitet şəhərciyində yubiley tədbirin-

də və Türkiyə Böyük Millət Məclisində dahi şairin anma mərasimində çıxışlar etmişdir.

- Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirilmişdir

- Füzulinin 500 illik yubileyinin dünya miqyasında keçirilməsi ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının YUNESKO təşkilatı tərəfindən qərar qəbul edərək yubiley ilini Füzuli ili elan etmişdir.

- Türkiyə Yazıçılar Dərnəyi və İstanbul Böyükşəhər Bələdiyyəsi tərəfingən İstanbulda Füzulinin 500 illiyinə həsr olunmuş elmi konfrans təşkil edilmişdir.

**1995** - Türkiyə YUNESKO-nun himayəsi altında Füzulinin anadan olmasının 500 illiyini qeyd etmişdir.

**1996** - Füzulişünas-alim Mail Əliyev Füzulinin türkcə "Divan"ının elmi-tənqidi mətnini hazırlamışdır

- Prezident Heydər Əliyevin imzaladığı fərmana əsasən Füzulinin anadan olmasının 500 illik yubileyi, Bakıda təntənə ilə qeyd edilmişdir.

- Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adı verilmişdir.

- Azərbaycan Milli Bankı Füzulinin 500 illiyinə həsr olunmuş 100 manat nominalında qızıl, 50 manat nominalında isə gümüş xatirə sikkələri buraxmışdır.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Füzuli adına beynəlxalq mükafat təsisi edilmişdir.

- Xalq rəssamı Tofiq Ağababayev "Məhəmməd Füzuli" əsərini yaratmışdır.

**2002** - Ədəbiyyatşünas Aydın Abıyevin "Füzuli və Türkiyə poeziyası" monoqrafiyası nəşr edilmişdir.

**2004** - Yazıçı Oqtay Salamzadənin Füzuliyə həsr olunmuş "Sevgi iztirabı" adlı ikihissəli tarixi romanı çapdan çıxmışdır.

**2005** - "Məhəmməd Füzuli əsərləri" 6 cildliyi çapdan çıxmışdır.
- Yazıçı Əzizə Cəfərzadənin Məhəmməd Füzulinin həyatından bəhs edən "Eşq sultanı" tarixi romanı çapdan çıxmışdır.

**2008** - Professor Şəfəq Əlibəylinin "Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər" kitabı çapdan çıxmışdır.

**2013** - Filologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Cümşüdlünün "Füzulinin ərəbcə poetik irsi" kitabı çapdan çıxmışdır.

**2014** - Füzulinin anadan olmasının 520 illiyi münasibətilə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə M.Ə. Sabir adına kütləvi kitabxanada tədbir keçirilmişdir.

| | |
|---|---|
| **2017** | - Məhəmməd Füzulinin türkcə (azərbaycanca) "Divan"ının əlyazmasının surəti "Dünya Yaddaşı" Proqramı Reyestrinə daxil edilmişdir. |
| **2018** | - Ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin müəllifi olduğu, Məhəmməd Füzuli yaradıcılığından bəhs edən "Füzulinin poetik xüsusiyyətləri" adlı elmi əsər şair-tərcüməçi Yurtseven Şen tərəfindən türkcəyə tərcümə olunaraq çap edilmişdir. |
| **2019** | - Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Məhəmməd Füzuli Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.<br>- Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Füzulişünaslıq sektoru tərəfindən "Füzuli düşünür" kitabı nəşr edilmişdir. |
| **2021** | - AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə "Ürək dostu, könül həmdəmi" ("Ənisul-qəlb") adlı kitab çap edilmişdir.<br>- Azərkitab – Kitab Təbliğatı Mərkəzində Məhəmməd Füzulinin ərəb dilində qələmə aldığı "Mətləül Etiqad" elmi fəlsəfi əsərinin Azərbaycan dilinə tərcümə olunmuş kitabının (tərc. Təbriz Qasımov) təqdimat mərasimi keçirilmişdir. |
| **2024** | - Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır.<br>- "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar aprel ayı ərzində "Məktəblərdə Məhəmməd Füzuli ayı" layihəsi həyata keçirilmişdir.<br>- Azərbaycan Milli Kitabxanası tərəfindən Məhəmməd Füzulinin - 530 illik yubileyinə həsr olunmuş "Nəhəng söz ustadı" adlı metodik vəsait çap olunmuşdur<br>- AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Müasir fəlsəfə problemləri şöbəsində "Məhəmməd Füzuli: elm, bilik, fəlsəfə" mövzusunda elmi seminar keçirilmişdir.<br>- Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının müzakirəsi və təqdimat mərasimi keçirilmişdir.<br>- AMEA-da Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir.<br>- "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar aprel ayı ərzində "Məktəblərdə Məhəmməd Füzuli ayı" layihəsi həyata keçirilmişdir.<br>- Məhəmməd Füzulinin anadan olmasının 530 illik yubileyi münasibətilə Almaniyada xüsusi poçt markası buraxılmışdır.<br>- AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə elektron məlumat bazası yaradılmışdır. |

- Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində “Qəlbimdəki şair” (Der Poet in mir) adlı təntənəli yubiley tədbiri keçirilmişdir.

- Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş X Bakı Beynəlxalq Kitab Sərgisi keçirilmişdir.

- X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Bakı Ekspo Mərkəzində “Klassik Azərbaycan şeirinin günəşi - Məhəmməd Füzuli” mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.